# Estetik mədəniyyət, onun tarixi, fəlsəfi və kulturoloji aspektləri

Mədəniyyətşünaslığın (kulturologiyanın) tarixinin öyrənilməsi isə olduqca maraqlıdır. Hazırda dünya birliyi mədəniyyətin vəziyyətinə daha çox diqqət yetirir. O adamların həyat fəaliyyəti prosesinin məzmunu kimi, onların fəal və məqsədyönlü məhsuldar sosial fəallığının nəticəsi kimi başa düşülür. Lakin bu fəaliyyət heç də həmişə uğurlu və məqsədə müvafiq olmur. Mədəniyyət planetar sivilizasiyanın aparıcı əlamətlərindən biri kimi çıxış edir, insanların həyatını digər canlıların həyatından fərqləndirir. Bura mümkün qədər yerdən kənar sivilizasiyalardan fərqlənmə də daxildir.

Mədəniyyət adamların yaradıcılığının əsas, tarixən uzun dövrdə fəaliyyətdə olan göstəricisidir. Eyni zamanda iri sosial subyektlərinin, hər bir ayrıca götürülmüş şəxsiyyətin perspektivliyinin və tarixi yolunun qiymətləndirilməsinin kriteriyası, birliklərin və ayrı- ayrı xalqların inkişafının keyfiyyəti və səviyyəsinin nisbətini də göstərir. Mədəniyyət "ikinci təbiətdir". Mədəniyyət insanlar tərəfindən yaradılmış və cəmiyyətin prinsipcə digər qanun və amillərin fəaliyyətini bildirir (bu ümumplanetar və konkret xalq və dövlətlərin fəaliyyətinə də aiddir. Həmin mədəniyyət təbii (birinci) təbiətdən köklü surətdə fərqlənir. Qeyd etmək lazımdır ki, mədəniyyət ikinci təbiət kimi özünə təkcə maddi- fiziki deyil, həm də mənəvi (ideal) elementləri də daxil edir. Bu prinsiplər mədəniyyəti ətraf mühiti təşkil edən təbiətdən fərqləndirir. Mədəniyyətdə insanların mənəvi-subyektiv qabiliyyət və xassələr təzahür edir.

Dünya birliyinin XXI əsrdə inkişaf perspektivləri getdikcə daha çox böhran hadisələri ilə müəyyən olunur. Bu isə mədəniyyətin antipodu və insanın mədəni qeyri- mükəmməlliyinin göstəricisi hesab olunur. Onlar qlobal, regional və konkret - lokal- ekoloji və sosial problemləri kəskinləşdirir və fəallaşdırır, insanların həyat fəaliyyəti üçün təhlükə yaradır. Bu cür kompleks problemlərdən biri insanın aqressivliyinin yüksəlməsi, destruktivliyinin artması, antimədəniyyətin inkişafına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, ətraf mühitin dağıdılması sürətli texniki inkişafla daha çox əlaqədardır. Bunu çox vaxt bəşəriyyətin üçüncü günahı hesab edirlər. K.Lorenin fikrincə, həmin üçüncü günah insanlara mənfi təsir göstərir, onları həqiqi dəyərlərə münasibətdə kor edir. Hazırda biz daha tez- tez elə adamlara rast gəlirik ki, onlar üçün insani ünsiyyəti, təbiət aləmini, incəsənəti təxminən tamamilə televiziya və şəxsi kompyuterlər əvəz edir.

Elmi- texniki tərəqqi çox halda müasir cəmiyyətin dördüncü günahı- insanı zərifliyə, çətinliyə dözməyə sövq edir. bu isə onun bütün güclü hisslərinin və effektin itirilməsi deməkdir.

K.Lorensə görə insanda hər üç narazılığa görə dözülməzlik güclənir və nəticədə, müasir insan dahak tez- tez texniki və farmakoloji cəhətdən neytrallaşır. Təbiətin idarəsilə birbirini əvəz edən iztirab və sevinc dalğaları aşağı düşür və nəzərə çarpmaz və dözülməz dərdə çevrilir.

Daim və düşünmədən farmakoloji vasitələrdən istifadə edilməsi, təbii mühitlə əlaqədar şəraitin getdikcə pisləşməsi, bu günümüzün V problem- prosesinin, daha dəqiq desək V günahın yaranmasına gətirib çıxarır. Bu problem- proses insanın genetik deqradasiyasıdır. Yeni doğulmuş uşaqlarda daha çox müşahidə olunan eybəcərliyin artması, fiziki patologiyanın yüksəlməsi, həmin problem- prosesin əsas göstəriciləridir. Anomaliya hadisələrinin sayı hər il artmaqda davam edir. (Bu təzə doğulanların təqribən 10% təşkil edir). həmin hal, təkcə iri şəhərlərdə deyil, eyni zamanda ekoloji cəhətdən əlverişli olmayan regionlarda da özünü daha çox hiss etdirir.

K.Lorensə görə bəşəriyyətin altıncı dəhşətli günahı ənənə ilə əlaqənin kəsilməsidir. Ənənə- keçmişdə mövcud olan insanların təcrübəsi ilə müəyyənləşdirilən mədəniyyət normalarıdır. Mühafizəkarlıq deyə həmin təcrübədən imtina edilməsi bu gün üçün yararlı hesab olunmur, elə buna görə də insanların ənənələrlə əlaqəsi kəsilir. Təsadüfi deyildir ki, gənclik böyüklərə özgə, yarıetnik qrup kimi baxırlar. K.Lorenin sözləri ilə desək onlara qarşı "milli nifrət" hissi bəsləyirlər. Bu tendensiya valideynlərlə övladlar arasında kontaktın zəifləməsi, daha doğrusu, kifayət qədər olmaması səbəbinə güclənir. Həmin meylin nəticəsi bu gün daha ağrılı hiss olunmaqdadır.

K.Lorensə görə müasir cəmiyyət üçün fövqəladə dərəcədə əhəmiyyət daşıyan VII günah- bəşəriyyətin artmaqda olan indaktrinasiyasıdır. Həmin hal bu və ya digər mədəni qrupa mənsub olan adamların sayının getdikcə artmasıdır. Bu isə texniki vasitələrin təkmilləşdirilməsi sayəsində ictimai rəyə təsirin güclənməsi hesabına baş verir. Hazırda sənaye cəhətdən inkişaf etmiş cəmiyyətin bu cür iunifikasiyası ictimai rəyin zombiləşməsinə, reklamın yorulmaz təzyiqinə gətirib çı-

xarır. Həmin təsir sayəsində rəsmi və sosial təbliğat modaya çevrilir. Bu hadisəni isə tarix indiyə qədər görməmiş və bilməmişdir.

K.Lorensə görə sonuncu-səkkizinci günah bəşəriyyətin (günah) qədər rastlaşmadığı təhlükə ilə hədələyir. Bu təhlükə istilik - nüvə müharibəsi təhlükəsidir. Doğrudan da müasir dünya birliyi istilik - nüvə müharibəsinin baş verməməsi üçün əlindən gələn hər bir şeyi edir. Çoxsaylı beynəlxalq müqavilələrin olmasına baxmayaraq, yenə də nüvə silahlarının ixtisarı və istehsalını məhdudlaşdırmaq sahəsində iş görülməsi üçün yeni- yeni variantlar ortaya atılır, nüvə dövlətləri arasında bu sahədə ardı-arası kəsilməyən danışıqlar aparılır. İnsanlar nüvə müharibəsinin təhlükəsini başa düşdüklərinə görə, onun baş verməməsi üçün əllərindən gələni edirlər.

Beləliklə, K.Lorensin "Böyük günahlar" adı altında təqdim etdiyi qlobal problemlər praktiki olaraq müasir sivilizasiyanın bütün "ağır nəticələrini" əhatə edir. Səciyyəvi və maraqlı cəhətlərdən biri də odur ki, K.Lorens bu problemləri insanla, onun fəaliyyətinin xüsusiyyətləri ilə, şüuru ilə əlaqədar olaraq götürür. Bütün bunların hamısının müasir texnikiləşdirilmiş cəmiyyətin yaratdığını qeyd edir. Müasir sivilizasiyanın təqdim etdiyi qlobal problemlərin əsas yaradıcısı və daşıyıcısı K.Lorensə görə insanın özüdür. Elə bil bununla K.Lorens yaxınlaşan fəlakət haqqında insanları bir daha xəbərdar edir.

İnsanın təkcə təbii mühitə deyil, eyni zamanda onun özünün yaratdığı süni mühitə münasibəti də onun mədəniyyəti ilə əlaqədardır. Şəxsiyyətin müasir tipi təhlükəli və hədələyici ziddiyyət kimi ikili xarakter əldə etməkdədir. Əlbəttə bu vəziyyət bütövlükdə bəşəriyyəti xarakterizə etmir, eyni zamanda aydın və davamlı tendensiya kimi özünü göstərir.

Estetik mədəniyyət cəmiyyət və şəxsiyyətin mənəvi həyatını səciyyələndirir, onların mənəvi aləmini- şüur, dünyagörüşü və sosial-mənəvi keyfiyyətlərini əks etdirir. Estetik hisslər, estetik anlam- subyektlərin mənəvi mədəniyyətinin elementləridir. Onlar şüurun təkrar istehsalına yönəlmiş, adamların estetik tələbatlarının ödənilməsinə xidmət edir. Estetik mədəniyyət cəmiyyətin bədii- estetik mədəniyyətinin inikası və təzahürüdür. Estetik mədəniyyət hər şeydən əvvəl, mənəvi həyat hadisəsidir. Lakin estetik mədəniyyətin kulturoloji xarakteristikası zamanı bədii yaradıcılığın bəzi ümumi əlamətləri üzə çıxır. Estetik mədəniyyətin mahiyyəti və məzmunu olduqca mürəkkəbdir. Cəmiyyətin subyektlərinin estetik mədəniyyəti mənəvi mədəniyyətin elementləri olaraq mədəniyyət növləri kimi çıxış edir. Cəmiyyətin mənəvi mədəniyyəti aşağıdakılarını özünə daxil edir:

- fərdi və ictimai şüurun təkrar istehsalı;
- xalq bədii mədəniyyəti;
- incəsənət bədii yaradıcılığın peşəkar növü kimi;
- estetik mədəniyyət;
- elmi həyatın mədəniyyəti;
- təhsil mədəniyyəti;
- tərbiyə mədəniyyəti;
- mənəvi- ruhani həyatın mədəniyyəti;
- informasiya mədəniyyəti.

Siyahıdan göründüyü kimi estetik mədəniyyət cəmiyyətin mənəvi həyatının bütün məzmununu əhatə edə bilmir. Mənəvi mədəniyyət mədəniyyətin ən qədim növlərindən biridir. Özünün xeyrə humanizmə, sosial ədalətə münasibəti, sülhpərvərliyi ilə o estetik mədəniyyətlə sıx şəkildə əlaqədardır.

Estetik mədəniyyətin ayrılmaz hissəsi olan bədii mədəniyyət, peşəkar incəsənət, obrazlı yaradıcılıqla, cəmiyyətin mədəniyyət növü kimi özünü göstərir. O, xüsusi bədii yaradıcılıq növlərini incəsənəti, xalq - bədii mədəniyyətinin, kütləvi mədəniyyəti, elitar bədii mədəniyyəti, fəaliyyətin iqtisadi, siyasi hüquqi və digər növlərinin bədii - estetik cəhətlərini özünə daxil edir.

İnsanların şüurunda əks olunaraq bədii mədəniyyət estetik şüuru və onun mədəni formalarını əks etdirir. İlk dəfə "estetika" terminini XVIII əsrdə alman filosofu A.Baumharten elmi dövriyyəyə gətirmişdir. O özünün tamalanmamış "Estetika" əsərində bu termini özü bildiyi kimi izah etməyə çalışmışdır. Estetika dedikdə o mükəmməl hissi idrakı başa düşürdü ki, bunun da zirvəsində gözəllik dururdu. Baumharten üçün vacib olan insanı yüksəldən həqiqi hissi idrakın əlamətlərini dəqiqləşdirmək idi. Bura idrak prosesinin özü də daxil edilirdi. Lakin tezliklə həmin termin "gözəllik nəzəriyyəsi" əhəmiyyəti qazandı. Bu gün isə estetika incəsənət nəzəriyyəsidir. Onun məzmunu incəsənətin növlərini, cəmiyyətin mənəvi həyatında onların rolu və yeri, adamların estetik tələbatlarının ödənilməsində rolu, incəsənətin metod və üsullarını əks etdirən nəzəri konsepsiyalar təşkil edir. Lakin "estetika" termini bədii mədəniyyətin və onun başlıca ünsürü- incəsənət haqqında biliyi də ifadə edir. Danışıqda "bədii şüur" sözü çox az işlənir. İncəsənəti əks etdirən "incəsənət şüuru" sözü isə heç işlənilmir. Daha çox işlənən formalar "estetik şüur" və yaxud da "bədii estetik şüur" hesab olunur. "İncəsənət mədəniyyəti" və yaxud "incəsənət nazirliyi" kimi söz birləşmələri heç işlənilmir. Onların mahiyyəti bədii və yaxud bədii- estetik mədəniyyət, incəsənət mədəniyyət formasıdır, mədəniyyət nazirliyi (bu isə sırf incəsənət məsələləri ilə məşğul olur) kimi söz birləşmələrində öz əksini tapmışdır.



Cəmiyyətin bədii- estetik mədəniyyətinin məzmununu aşağıdakı elementlər təşkil edir. Birincis;i, subyektin estetik şüurunun və dünyagörşünün inkişaf etməsi; İkincisi, incəsənət növlərinin inkişaf ölçüsü və onların fəaliyyətində subyektlərin əlaqəsi dərəcəsi; Üçüncüsü, gözəlliyin və ülvülüyün dəyər və nizamlayıcı kimi adamların fəaliyyətində, davranışında, ünsiyyətində öz təsdiqini tapması; Dördüncüsü, ölkə və dünya bədii mədəniyyətində subyektlərin estetik mədəniyyətinin inteqrasiya olunması; Beşincisi, bədii təfəkkürün və fəaliyyətin humanizmi; Altıncısı, gerçəkliyin estetik qavrayışı və şəxsiyyətin özünüifadə azadlığı və rəngarəngliyi incəsənət nəzəriyyəsi kimi estetika və estetik şüur "bədii obraz", "gözəllik", "kamillik", "faciəvilik", "ülvilik", "ciddilik, "oyun" və s. kateqoriyalarından istifadə etməklə insanı əhatə edən dünyanı və insanın özünü əks etdirir. Ən əsas kateqoriyalardan biri "bədiilik" kateqoriyasıdır. O bir neçə mənaya malikdir. İncəsənətə aid olan nə varsa, bədii obrazlarda gerçəkliyin nə qədər inikası vardırsa o bədiiliyi ifadə edir. Məsələn, bədii ədəbiyyat bədii yaradıcılıq, bədii təfəkkür, ədəbi məktəb və s. bu qəbildəndir. Bədiilik eyni zamanda incəsənət əsərlərinə aid olanları (rəssamlıq, heykəltəraşlıq qrafika əsərlərinin nümayişi, o cümlədən, bədii sərgilər) bildirir. Bədiilik həmçinin incəsənət əsərlərinə, onları yaradanların fəaliyyətinin üslub və yaxud məzmununa aid xassələri də əks etdirir. Məsələn, realizm, sürrealizm, avanqardizm təkcə rəssamlığı deyil, eyni zamanda onların janr istiqamətlərini də təşkil edir. Onlar həmçinin həmin əsərlərin yaradıcılarının bədii yaradıcılığının üslubunu da göstərir. "Bədiilik" kateqoriyası insanın fərdi xüsusiyyətlərinin, onun fəaliyyətlərinin istiqamətlərini qeyd etmək üçün də tətbiq olunur. Məsələn, uşağın bədii- ədəbi təmayülü, sənətkarın istedadı və s. bu qəbildəndir. "Bədiilik" kateqoriyasını ümumiləşdirərək qeyd etmək olar ki, incəsənət nümayənlərinin rəngarəng fəaliyyətinin, xalq bədii mədəniyyətinin məzmun və növləri həmin kateqoriyalarda şüurun hissi və yaxud abstarkt- məntiqi obrazları kimi əks olunur. Bu isə elm, siyasət, din və s. obrazlarından fərqlənir. Çünki həmin obrazlara da bədii- təsvir, musiqi, teatr, rəqs, estrada və yaradıcılığın digər növlərinə də rast gəlmək mümkündürsə, bu onların spesifikliyinə mane olmur.

Əslində əlamətlərin məcmuu "bədiilik" anlayışının məzmununu təşkil edir. o bədii yaradıcılığın əlamətlərinin "üç səviyyədə" inikası ilə şərtlənmişdir. A) təbiətin, insanın özünün, bəşər mədəniyyətinin fiksasiya səviyyəsində, b) subyektin şüurunda bədii təfəkkürün əlamətlərinin formalaşması səviyyəsində, c) bilavasitə bədii yaradıcılıq prosesində bədii təfəkkürün əlamətlərinin, maddi dünyanın əlamətlərinin inteqrasiyası, "birləşməsi" səviyyəsində. Ona görə də "bədiilik" anlayışı ona yaxın olan "bədii obraz" anlayışından fərqlənir. Çünki "bədiilik" forma müxtəlifliyi, bədii mədəniyyəti və onun növlərinin əlamətlərinin geniş səviyyədə ümumiləşdirilməsi ilə seçilir. "Bədii obraz" kateqoriyası incəsənət kütləvi mədəniyyət, xalq bədii yaradıcılığının forma, üsul və vasitələrilə obyektiv və subyektiv dünyanı yaradıcılığın konkret növündə emosional cəhətdən bəzək- düzək vurulmuş inikasıdır. Məsələn, musiqidə bədii obraz rəssamlıqdakı və yaxud sirk incəsənətindəki bədii obrazlardan fərqlənir. Çünki burada gerçəklik musiqi yaradıcılığının üsul və vasitələri ilə əks olunur. Eyni zamanda yaradıcılığın müstəqil növü kimi musiqi əlamətləri burada həlleidici yer tutur.

Məlum olduğu kimi ədəbi yaradıcılıqda bəddi obrazlar konkret personajlar, onların xarakteri, davranışı, ünsiyyət və fəaliyyəti, həyatının əxlaqi və qeyri- əxlaqi məzmunu və s. ilə əlaqədardır.

Ümumiyyətlə, insan öz təbiəti etibarı ilə sənətkardır. İnsan həmişə və hər yerdə gözəlliyə, zərifliyə, ahəngdarlığa can atır. İnsan dünyaya gələn vaxtdan onda dünyaya qarşı bədii münasibət bəsləmək qabiliyyəti inkişaf edir. Qeyd etmək lazımdır ki, estetik mədəniyyət estetik fəaliyyətin nəticəsi olaraq, meydana çıxır. Estetik fəaliyyət insanın estetik dəyərlər yaratmaq məqsədini güdən təcrübəsinin formalarından biridir. Estetik fəaliyyət gözəllik qanunları üzrə həyata keçirilən hər bir yaradıcılıq fəaliyyətinin, hər cür yaradıcı işin tərkib hissəsidir.

***Apdin ƏLİZADƏ,***
***fəlsəfə elmləri namizədi, dosent***

**ƏDƏBİYYAT**

1. **Şükürov A.M. Kulturologiya. (2-ci nəşr).B., 2003**
2. **Şükürov A.M. Kulturologiya, 2003**
3. **Ионин Л.Г. Социология культуры. М., "Логос", 1998**
4. **Гердер И.Г. Идеи к философии человечества М., Наука, 1977**
5. **Даль В. Толковый словарь живого великорусского языка. Т.2, М., Русскийй язык, 1979**
6. **Будагов Р.А. История слов в истории обществ. М.,Просвещение, 1971**
7. **Sapir E/ Language New-York, 1921**